**HƏYAT ŞAMIYEVA**
*AMEA A.Bakıxanov adına Tarix İnstitutu "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin elmi işçisi*

# XÜRRƏMİLƏRİN DİNİ İNANC VƏ AYİNLƏRİ, QADINA MÜNASİBƏT

Xürrəmilərin dini inanc və ayinləri, qadına münasibət məsələsi xüsusi bir elmi tədqiqat obyekti olmamasına baxmayaraq, xürrəmilərin dini-siyasi görüşlərini araşdıran tarixçilərdən Z.M.Bünyadov [4], N.M.Vəlixanlı [27], P.K.Juze [15], M.Tomara [25], E.Z.Əzizov [10], Hüseyn Qasim əl-Əziz [12] və digərləri öz əsərlərində bu mövzuya qismən toxunmuşlar. Xürrəmilər-babəkilər haqqında aparılan tədqiqatlar istər tarixi nəzəri, istərsə də inanc baxımından dəyişik və hətta demək olar ki, təzadlı fikirlərlə nəticələnmişdir. Xürrəmiləri, xüsusən də babəkiləri həm zərdüşti, həm məzdəki, həm mani, həm on iki imamlı şiə, həm də şuubi adlandırmışlar. Söylədiklərimizin geniş nümunəsi N.M.Vəlixanlının [28, 87-97] məqaləsində öz əksini tapmışdır: "Son illərdə bəzi tarixçi və filosoflarımızın əsərlərində xürrəmilər və Babək (onun özü, istinadgahı, milliyyəti, ideologiyası və s.) haqqında müxtəlif səviyyəli fikirlər söylənilir, bəziləri Babək hərəkatını islama qarşı yox, Xilafətə qarşı çevrilmiş şuubilik (xalqçılıq), yəni qeyri-ərəb xalqların ərəb üsul-idarəsinə qarşı mübarizə hərəkatı olduğunu qeyd edirlər" [28, 88; 3, 67]. Digər tərəfdən isə bir çox filosoflar xürrəmiləri və Babəki zərdüştilik ideyalarından bəhrələnən, özlərinə məxsus sinkretik təlimə malik "xalq qiyamçıları" olduqlarını göstərirlər [17, 24]. Amma sonda bütün tarixçi və filosofların nəticələrindən bir qənaət hasil etmək mümkündür. Bu da ondan ibarətdir ki, Xürrəmilər-babəkilər hərəkatı ərəb ağalığına qarşı çevrilmiş bir milli-azadlıq hərəkatı idi. Məhz, bu məsələ ayrıca bir tədqiqat mövzusu olduğundan üstündə dayanmayacayıq.

Istər Xürrəmilər, istərsə də Xürrəmilər-babəkilərin dini inanc və ayinlərindən danışmazdan əvvəl biz Azərbaycanda və ərəb Xilafətinin tərkibinə daxil olan qonşu ölkələr ərazisində Xürrəmilər üsyanından əvvəl baş vermiş xalq hərəkatlarının dini-siyasi ideologiyalarına nəzər salmalıyıq. Xürrəmiləri yuxarıda adı çəkilən inanclara aid etmək özlüyündə bu ideyaların, sadəcə nəzəriyyə olduğunu göstərir. Hər hansı bir nəzəriyyənin sübut olunmaması digər fərqli nəzəriyyələrin meydana çıxmasına səbəb olur. Tədqiqatçıları bu nəzəriyyəyə gətirib çıxaran əsas səbəb Babəkin İranla məhdudlaşdırılması və İrana mənsub ideyaların içində araşdırılmasıdır. Yəqin buna görə də, Babəkə bir iranlı kimliyi yaradıb və İrana mənsub olduğu iddia olunan inanclara mənsub etməyə çalışırlar. Bunun da əsas səbəbi Xürrəmilər hərəkatına ciddi təsir buraxan Babək dövründə olan üç əhəmiyyətli imperatorluqdan birinin tamamilə unudulmasıdır. Babəkin kimliyinə və Xürrəmilər-babəkilərin inancına təsir göstərən türk imperatorluğu – Xəzər imperatorluğu idi. Ari tayfalarının İran coğrafi ərazisində məskunlaşmalarından daha əvvəl burada türk tayfalarının yaşadıqları artıq dəfələrlə sübut olunmuşdur. Bu türk tayfalarının dini inanc və ayinlərinin izlərini xürrəmilərin təlimlərində görmək çətin deyildir. Belə ki, xürrəmilərdə mövcud olan tənasüh və hülul ideyaları coğrafi ərazidə yaşayan qədim türk tayfalarının inanclarında mühüm əhəmiyyət kəsb edən bir faktor idi.

Tarixçi alim M.İ.Azərli IX əsrin ərəbdilli mənbələrində qədim Azərbaycan haqqındakı məlumatlara toxunarkən əhəmiyyətli bir faktı ortaya çıxarmışdır. Belə ki, müəllif, Əbuməhəmməd Əbdülməlik ibn Hişamın (vəfatı 213 h.q. – 828-29) "Himyər şahları barədə taclar kitabı" adlı əsərindən bəhs edərkən, bu əsərdə Azərbaycan və onun şəhərləri haqqında çox əhəmiyyətli məlumat verildiyini söyləyir. Müəllif yazır ki, "Əbuməhəmməd Əbdülməlik ibn Hişam həmin əsərini Ubeyd ibn Şəriyyə əl-Cürhümi adlı həmyərli alimin, Əməvilər sülaləsinin banisi xəlifə I Müaviyənin hüzurunda söylə-

diyi xatirələrə və sual-cavaba həsr etmişdir" [1, 86 ]. M.İ.Azərli ibn Hişamın əsərində Müaviyənin Ubeyd ibn Şəriyyə ilə söhbəti əsnasında qarşılaşdığı maraqlı faktdan bəhs edir: "Müaviyə Ubeyd ibn Şəriyyəyə müraciət edərək Azərbaycan haqqında onun fikrini öyrənmək istəyərək demişdir: "Sən allah Azərbaycan (haqqında) əlaqəniz, təlaşınız və xatirəniz nədir?" Ubeyd ibn Şəriyyə belə cavab vermişdir: "Ora qədimdən türk torpağıdır, onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər" [1, 87]. Şübhəsiz, VII əsrin 60-70-ci illərində xəlifə Müaviyəyə verilən belə cavabda Ubeyd ibn Şəriyyə "türk" dedikdə, ehtimal ki, burada hələ eramızın ilk əsrlərindən başlayaraq Şimali Qafqazdan Xəzər dənizinin qərb sahili ilə Azərbaycana gələn, burada öz həmdillilərinin yaşadıqlarını görərək özlərini, məskən salan bir sıra türkdilli tayfaları – hunları, sabirləri, bulqarları, xəzərləri və başqalarını nəzərə alırdı. Həmçinin əski türklərdən qalan Şumer, Elam və Urartu kitabələri danılmaz faktlardır ki, türklərin bu bölgələrdə yaşadıqlarını sübut edir. Təbərinin tarixini xülasə edən Bələmi Manuçöhrün Azərbaycanda türklərlə savaşdığını, Keyxosrov və övladlarının Azərbaycanda türklərlə savaşdığını və türklərin hüdudunu Türküstandan Ruma qədər olduğunu və eləcə də Güştaspın Azərbaycanda türklərlə savaşıb və bir çox türkü öldürdüyünü qeyd edir [14, 6; 24, 244, 433, 478]. 963-cü ildə Təbəri tarixinin bəzi hissələri Samani dövlətinin vəziri iranlı Məhəmməd Bələmi tərəfindən yenidən işlənmiş və ixtisarla fars dilinə tərcümə edilmişdir. Bələmi tərəfindən hazırlanan mətndə olan bir sıra mənbələrdən yeni material da əlavə edilmişdir. Ona görə də, Bələmi tərəfindən işlənən Təbəri tarixi öz növbəsində müəyyən əhəmiyyətə malikdir. Bələminin tərcümə etdiyi Təbəri tarixinin mətni bir neçə dilə tərcümə edilmişdir. Əsərin bu işdə istifadə edilən türkcə tərcüməsi isə İstanbulda üç dildə nəşr edilmişdir.

Xəzərlərin Azərbaycanın tarixində əhəmiyyətli rolu olub, məhz buna görə də, Babəki tanımaq üçün ilk öncə xəzərləri tanımalıyıq, xəzərləri və xəzərlərə qədərki dövrü öyrənməliyik. Ona görə ki, Babəkilər hərəkatı həm soy baxımından, həm coğrafi baxımdan, həm də inanc və siyasət baxımından xəzərlərə yaxın və oxşar mövqedə olub. Xəzər imperatorluğu, onun dövlət idarə sistemi, inancı və coğrafiyası yaranışından tarixdə izlər buraxıb. Tarixçilər Xəzər imperatorluğunu Rum (xristian) və ərəb (islam) imperatorluqlarıyla eyni səviyyə və əhəmiyyətdə görüblər. R.Rəisniya xəzərlərin Azərbaycanın milli tərkibinə təsiri olmasından bəhs edir [22, 561].

642-ci ildə ərəblər İran ordusunu Nəhavənddə məğlub etdikdən sonra ərəb ordusu iki hissəyə ayrılıb biri Rey tərəf, digəri Qəzvin yolu ilə Azərbaycana üz tutdu. Yaqut əl-Həməvinin yazdığına görə, təqribən bu işğaldan dərhal sonra üsyanlar başlamışdır. Ərəblər qüvvələrinin az olması səbəbindən Azərbaycanda işğalları kifayət qədər davam etdirə və işğal olunan yerlərə nüfuz edə bilmədilər. Buna səbəb isə ərəb dilinin Azərbaycanda anlaşıla bilməməsi idi. Rayt yazır: "Yaqut əl-Həməvi belə deyir ki, burda danışılan dilə azəri deyirlər və özlərindən başqa kimsə onu başa düşməz" [29, 43; 44].

Xürrəmilər hərəkatı siyasi olduğu qədər də dini-irfani bir hərəkatdır. Bu hərəkatın dini inanc və dəyərləri, həmçinin ayinləri bu günə qədər mübahisə mövzusu olub və olmaqdadır. Tarixdə xürrəmilər və ya xürrəmdinilər adı hələ Əbu Müslüm üsyanı zamanı ortaya çıxmışdır. 750-ci illərdə Əbu Müslüm üsyanında özlərini xürrəmilər və ya xürrəmiyyələr adlandıranlar və onların dini görüşlərinin davamçıları olanlara İshaq ət-Türki adıyla tanınan mavərənnəhrli bir türk başçılıq edirdi. Türk tarixçisi M.Əzimliyə görə, İshaq ət-Türki, Əbu Müslümün Zərdüşt tərəfindən göndərildiyini, onun (Əbu Müslümün-H.Ş.) ölmədiyini və Rey dağlarında yaşadığını, peyğəmbər olduğunu, özünün isə ədaləti bərqərar etmək üçün göndərildiyini söyləyirdi [2, 65]. Ishaq ət-Türkinin meydana çıxması Əbu Müslüm hərəkatının siyasi və dini-ideoloji bir hərəkata çevrilməsində çox əhəmiyyətli rol oynamışdır. Ishaq ət-Türkinin bir türk olması daşıdığı dini

görüşlərin və ideyaların Xorasan və Mavərənnəhrdəki türk topluluqlarının dini və ideoloji anlayışlarının açıqlanması baxımından da çox əhəmiyyətlidir. Bu görüşlər Xorasan və Mavərənnəhrdəki türk qrupları arasında ortaq dini və ideoloji bağların qırılmaz olduğunu göstərirdi. 755-ci ildə siyasi qüvvə kimi ortaya çıxan İshaq ət-Türkinin hərəkatı məğlub edilsə də, onların yaydığı fikirlər Xürrəmilər, daha sonralar isə Babək hərəkatının təməlini təşkil etmişdir [2, 65].

Əd-Dinəvəriyə görə, Babəkin soyu Əbu Müslümün qızı Fatimənin oğlu Mutahhara gedib çıxır [9, 367]. Bu açıqlama Babəkin soyu ilə bağlı axtarılan iddialardan sadəcə biridir. Xürrəmilər hərəkatının Babəkilər və ya Babəkiyyələr adı verilən mərhələsində Əbu Müslüm ardıcılları ilə sıx bağlantı qurulmuşdur. Onlar bu bağlılığı Əbu Müslümün qızı Fatimə vasitəsilə saxlamışdılar. Hətta Babək üsyanına qatılanlar arasında Fatimiyyə adlanan bir qrupun varlığı da bunu sübut edir [9, 367].

Söylənilənlərdən belə bir nəticəyə gəlmək olardı ki, həm ad olaraq (xürrəmilik), həm də dini-ideoloji olaraq (müslimiyyə) Babək hərəkatı, yaxud Xürrəmilər-babəkilər hərəkatı İshaq ət-Türkinin başladığı hərəkatın çox geniş ərazidə yayılmış və daha çox davam etmiş başqa bir forması idi. Yəni babəkilər öz ideya və görüşləri baxımından Əbu Müslüm üsyanının davamçıları idilər. Əbu Müslüm ideyalarının kökündə isə zərdüştilik elementləri var idi. Yenə də fərqli nəzəriyyələrdən biri xürrəmilərin zərdüşti və ya müslimiyyə olmaları nəzəriyyəsi ortaya çıxdı. Əbu Müslüm üsyanına ərəb və iran ünsürünün nə dərəcədə təsiri olduğu söylənilərkən, hərəkatın aparıcı gücünün tərkibi məsələsi bunların əksini deyir. Başda İ.Melikof olmaqla bir sıra qərb tarixçiləri Əbu Müslümün türk soylu olduğu üzərində durmuşlar [16, 26]. Belə ki, İ.Melikof Əbu Müslümün türk-oğuz soylu olduğuna əsaslanan tarixi qeydləri irəli sürmüşdür. Müəllif əsərinin müxtəlif yerlərində Əbu Müslüm kimliyinin türk yönləri üzərində duraraq Xorasandakı türk heterodoks (islamın şiə yönlü təriqəti – H.Ş.) islam təriqətinə işıq salmışdır. Digər bir tədqiqatçı E.N.Nəcəfə görə isə, Əbu Müslüm üsyanında ən böyük dəstəyi türklər və soqdlar vermişdi [20, 75]. Müəllifin fikrincə, soqdların buradakı varlığı inkaredilməzdir və bu toplum Əməvilər dövründə coğrafi İran topluluqları içərisində ən çox təzyiqə məruz qalan toplum idi. Əbu Müslüm hərəkatına xaricdən, Orta Asiyadan çox sayda türkün qatılması faktı da mövcuddur. Belə bir dəstək olmadan bu üsyanın hərbi baxımdan davam etdirilməsi qeyri-mümkün idi.

Əbu Müslüm üsyanı Əməvilərin hakimiyyətinə son qoyub, Abbasiləri taxta çıxarmaqla kifayətlənməmiş, Xilafətin idarəçiliyinin dəyişməsində də böyük rol oynamışdır. Belə ki, Əməvilər bir ərəb dövləti olaraq tanındığı halda, Abbasilər məvalilərin idarəçiliyində olan bir dövlət olmuşdur. Bu isə Abbasilərin hərbi baxımdan türkləşməsində birinci addım olmuşdur. Əbu Müslüm üsyanı Orta Şərqdə türk əsgəri varlığının gücünün təsdiqlənməsi baxımından da önəmlidir. Əbu Müslüm türk-şaman inancında geniş yeri olan "don dəyişdirmə" (don-ba-don olmaq), "tənasüh" (ruhun bir bədəndən başqa bədənə keçməsi – reenkarnasyon) kimi inancları bölüşməkdə idi. Bu baxımdan Əbu Müslümü ən çox mənimsəyən və qəbul edən çevrənin türklər olması da diqqət çəkən bir məqamdır. Ən əsası isə ondan sonra heteredoks islam aləmində meydana gələn bütün hərəkatlar ideoloji olaraq ondan bəhrələnmişlər. Xürrəmilər hərəkatı da məhz bu baxımdan diqqət çəkməkdədir. Xürrəmilər-babəkilər hərəkatını dəstəkləyən ərazilər – Rey, Azərbaycan, Ərməniyyə, Deyləm, Ərdəbil, Mazandaran, Cibal, İsfahan, Curcan, Arran və bu hərəkata qoşulan toplumlar – deyləmlilər, Curcan bölgəsi topluluqları. Aran və xüsusilə də Beyləqan bölgəsində yaşayan türklər, İsmət əl-Kürdinin başçılıq etdiyi bəzi kürd qrupları heteredoks islam anlayışını daşıyan qruplar olmuşlar. Babəkin daşıdığı ideologiyanın Xorasandan qaynaqlandığını sübut edən digər bir fakt isə ərəb qaynaqlarının onu "Xorasan iblisi" adlandırmaları və edam edildikdən sonra onun kəsilmiş ba-

şının üsyan etdiyi bölgələrə deyil, məhz Xorasana göndərilib xürrəmilərə nümayiş etdirilməsindən ibarətdir [13; 2, 111].

Xürrəmilər xürrəmdinilər idilər. Xürrəmilərdə inanc daha çox adət və ənənələrdə özünü göstərir. "Xürrəm" termini haqqında, həmçinin xürrəmilər dini barəsində mövcud olan nöqteyi-nəzərləri ətraflı təhlil edərkən bu nəticəyə gəlmək olar ki, "xürrəm" terminini B.Myuer [18, 218-232], İ.Velhauzen [26] və digər tədqiqatçıların əsərlərində olduğu kimi izah etmək olmaz. Həmin tədqiqatçılar xürrəmiləri hər cür qəbahət və əxlaqsızlıqda təqsirləndirərək, "xürrəm" terminini istədikləri kimi təhlil etmiş, onun tarixi və etimoloji köklərini araşdırmamışlar. Xürrəmidin "geniş və ya böyük fəlsəfi din" demək idi. "Xürrəm" sözü pəhləvi dilində "xor", yəni "böyük" və "əzəmət", amma bugünkü fars dilində "ləzzət" və "xoşluq" mənasındadır. "Xorah" isə "ilahi tərəfindən xalaiqə gələn bir işıqdır və bu işıq böyük alim və adil şahlara məxsusdur" [11; 14, 25]. Xürrəmilər bütün təbiətdə olan nemət və ləzzətlərdən faydalanmağı üstün tutur və bütün ləzzətləri halal bilirdilər. Ərəb mənbələri məhz bu geniş fəlsəfəni tanımadıqları üçün, yaxud tanıdıqları dinlər içərisində belə bir din olmadığı üçün onları "xürrəmi" adlandırırdılar. Xürrəmdinilər bütün dünyanın nemətlərinin insan üçün olduğunu və insanın bundan faydalanmasını düşünürdülər. Burada halal-haram məsələsi yalnız birinin ziyanı olduğu zaman ortaya çıxırdı. İbn Fəzlan türklərin şamanist olduqlarını, çoxallahlı olduqlarının xəbər verir. Ərəb müəllifləri bu inancların geniş olduğundan onlara "xürrəmdin" (geniş və böyük fəlsəfi din) adı vermişdilər. Deməli, xürrəmilər nə manizm, nə zərdüştizm, nə məzdəkizm ardıcılları idilər və nə də islamı 950-ci ilə qədər qəbul etməyib və öz ata-baba adət-ənənələrinə və inanclarına (şamanizmə) sadiq qalmışlar.

Z.M.Bünyadov [ 4 ], A.Müller [ 19 ] və N.V.Piqulevskayanın [ 21 ] müşahidələrinə əsasən biz belə bir nəticəyə gəldik ki, "xürrəm" termini qədim fars və erməni sözü olan "xur", "xvar" (günəş), "gözəgörünməyən", "mücərrəd", "ötəri" sözləri ilə əlaqəli surətdə izah etmək bəlkə də doğru olmazdı.

Xürrəmilərin dini inanclarında üç əsas meyar mövcud idi:

I. Hülul – Allahın insanda təcəssüm etməsi.
II. Tənasüh – ruhun bir bədəndən başqa bədənə keçməsi.
III. Ricət.

Xürrəmilərin hülul ideyası sonrakı əsrlərdə sufi və hürufilərin ideyalarında da yaşamaqda davam etmişdir. Xürrəmilərin inanclarına əsasən sərkərdə həlak olardısa onun ruhu bir insanda zühur etməli, yəni "tənasüh" baş verməli idi. Bir çox tədqiqatçıların (S.Nəfisi, S.İldırım və s.) söylədikləri kimi, elə bu inanca görə də, xürrəmi icmasının başçısı Cavidan öldükdən sonra onun ruhu Babəkdə zühur etmişdir. Xürrəmilərdə rəmzi olaraq, iki mənəvi qüvvəyə, ruha inam var idi. Bunlar ağ və qara, işıqlıq və qaranlıq ruhları idi. Xürrəmilərin bu inancları əski türklərdə mövcud olmuş iki qüvvənin ağ və qara qüvvənin (məsələn, Ağ Qoç, Qara Qoç) simvolik davamı idi.

Xürrəmilərə ilk dövrlərdə iki nəfər rəhbərlik edirdi – Cavidan və Əbu İmran. Cavidanı ət-Təbəri Cavidan ibn Səhl, əl-Məsudi ibn Şəhrək və Fehrist Suhrak yazırdılar. Eləcə də, Babəkin doğulduğu yer və atasının haqqında dəyişik məlumatlar var. Babəkin doğum yeri olaraq Bilalabad, Meymənd, Bəzz, Xudafərin kimi dəyişik yerlər zikr olunub. Babəkin atasının adı Abdulla, Əlhəsən, Mərdas və yuxarıda söylədiyimiz kimi, bəziləri də Əbu Müslüm Xorasaninin nəvəsi kimi iddia edirdilər. Cavidan Zəncandan qayıdışında Babəkin evində qalır, onun igidliyindən xoşlanıb öz yanına aparır. Xürrəmilərin rəhbərləri arasında (Cavidan və Əbu İmran) savaş başlayır. Əbu İmran ölür, Cavidan ağır yaralanır və üç gündən sonra o da ölür. Məhz bundan sonra Cavidanın xanımı Kəldaniyyə xatun xürrəmilərə deyir ki, "Cavidan dünən dedi ki, mən bu gecə

öləcəyəm və mənim ruhum Babəkin vücudunda canlanacaqdır. Mən istəyirəm o, xürrəmilərə rəhbərlik etsin". Bundan sonra, bütün mənbə və ədəbiyyatın da göstərdiyi kimi, Cavidanın xanımı bir inək qurban edib dərisini soydurur, yerə saldırır, dərinin digər tərəfinə çörək və şərab qoydurur. Bütün igidləri çağırır. Onlar bir-bir dəriyə ayaq basır, o tərəfdə çörəkdən kəsib şəraba batırıb yeyir və təkrarlayırdılar: "Mən Babəkin ruhuna inanıram necə ki, Cavidanın ruhuna inanıram" [29, 45]. Onun ardından isə Babəkin əlini öpüb və ona tabe olduqlarını elan edirdilər. Bu ayin xürrəmilərin "tənasüh" ideyasının təntənəli şəkildə elan edilməsinin mənbə və ədəbiyyatlarda öz əksini tapan hissəsidir. "Eyni zamanda, o, (Kəldaniyyə xatun) Babəkin yanında bir oturacaq qoyub oturmuşdu. Üç qurtum şərab içəndən sonra o, bir reyhan qanadını evlənmək təklifi kimi Babəkə verdi və bütün xürrəmilər bu evlilikdən razı olduqlarını bildirdilər" [29, 46-47]. Xürrəmilərdə qadına münasibəti Kəldaniyyə xatunun timsalında öyrənmək mümkündür. Belə ki, Kəldaniyyə xatun xürrəmi icmasında əvvəlcə Cavidanın sonra isə Babəkin xanımı olmuşdur. Xürrəmilərin istər dini, istər siyasi, istərsə də hərbi fəaliyyətlərində bu qadının rolu və əhəmiyyəti hər zaman üzə çıxır. Xatun, qədim türk toplumlarında olan cəsur və kişilərlə bərabər at minib, qılınc çalan bir xanım nümunəsidir. Bu nümunə xürrəmilərdə Kəldaniyyə xatun timsalında əks olunmuşdur. Onun sözünün və qılıncının kəsəri, qadına münasibətin xürrəmi formasında təzahürüdür. Birincisi, hələ çoxallahlılıq dövründə "türklərin şamanist köklü fəlsəfəsində nemət və bərəkət tanrısı "Al-al" və uşaqların qoruyucusu "Umay" tanrı adlı allahlar var idi ki, bunların hər ikisi də qadın allahlar idi [23, 48; 66]. Türklərdə olan qadının siyasi rolu xürrəmilərdə davam etməkdə idi. Məlumdur ki, Xəzər xaqanının bacısı qıtlıq zamanı milləti sakitləşdirmiş və məmləkətdə əmin-amanlığın yaranmasını təmin etmişdir. Digər bir misal, Xəzər xaqanının qızı Çiçəyin Bizans hakimiyyətindəki siyasi nüfuzunu göstərmək olar. Tarixdə türk qadın hökmdarlarının olması artıq danılmaz tarixi faktlardır. İran Əhəmənilər dövlətinin hökmdarı Kiri məğlub edən massaget tayfalarının hökmdarı Tomris ananın (Tomrisin əsl adı Tomr olmuşdur. Tomr "dəmir" mənasındadır. "Us" və yaxud "is" şəkilçidir və yunan şəxs adlarının sonluğuna əlavə edilirdi ) qəhrəmanlığı, eləcə də, Dədə Qorqud boylarında qadınların qılınc çalması, at çapması, yay çəkib ox atması, ov ovlaması, evləndiyi ərlə güləş və döyüşü (Banu Çiçəyin Bamsı Beyrəklə güləş səhnəsi ) türk mədəniyyətində və siyasətində qadının yüksək mövqeyini və ictimai-siyasi hüququnu nümayiş etdirir. Bütün mənbələrdə xürrəmi qadınlarının siyasi hakimiyyətdəki rolu eynilə türk tayfa və qövmlərində olduğu kimi təsvir edilmişdir.

Xürrəmilər hərəkatı çox geniş bir arealda yayıldığından sosial tərkibində müxtəlif millət və xalqları birləşdirirdi. Xürrəmi qadınlarının "bir yox, bir neçə ərinin olması" [8, 30] fikrini əsaslandıran müəlliflər xürrəmilərin nüfuz dairəsini və tərkibini yaddan çıxarmışlar. "Bəlli olan xəzərlərin içində qadınların neçə ərli olması təbii bir hal idi" [8, 31]. Bir çox qərb tarixçilərinin yazdığı kimi, Xürrəmilərdə ildə bir dəfə qadınların ümumiliyi ayinini həyata keçirmələri, fikrimizcə xürrəmilərin tərkibindəki, milli-azadlıq hərəkatına qoşulan millətlərin müxtəlifliyindən, bu müxtəliflik içərisindəki fərqli adət-ənənələrin xürrəmilərə sirayət etməsindən irəli gəlmişdir. Ümumiyyətlə, IX əsrin müstəqil türk qadınında siyasi və hərbi müstəqillikləri - ordu başqanlığı seçkisi, idarəetmədə rolu və sairə ilə bərabər cinsi azadlığı hüququnun olması real görünmür. Xürrəmilərdə yalnız qadının iradə və istəyindən asılı olaraq neçə kişi ilə istəyərdisə, o qədəri ilə evlənməyə ixtiyarı var idi. Bu, qadının iradə və istəyinə buraxılırdı.

## ƏDƏBİYYAT

1.Azərli M.İ. IX əsr ərəbdilli mənbəyi qədim Azərbaycan haqqında // Azərbaycan SSR Elmlər Akademiyası məruzələri, XXX cild, № 8, Bakı 1974, s.86-88.
2.Azimli M. Abbasiler dönemi Babek isyanı. Ankara: İlahiyat yayınları, 2004, 343 s.
3.Bəndəli Jauzi. Min tərixi-l-harakati-l fikriyyə fi-l-islam. Əl-Quds, 1928, 163s.
4.Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336s.
5.Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Arayış kitabı. Bakı: Nurlan, 1997, 287 s.
6.Буниятов З.М. О локализации города-крепости Базз // Известия АН АзССР, серия общ. наук, № 5, Баку 1959, с.17-23.
7.Буниятов З.М. О термине «хуррам» // Известия АН АзССР, Серия общ. наук, № 3, 1959, с.43-49.
8.Dunlop D.M. The history of the Jewish Khazars. NewYork: Schocken Books, 1967, 293 p.
9.Əd-Dinəvəri. Əl-əxbəru-t-Tival. (ərəb dilində), Beyrut: Əl-Kitab, 367s.
10.Əzizov E.Z. IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi. (filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün yazılmış dissertasiyanın avtoreferatı). Bakı 1974, 43 s.
11.Fərəhvəşi B. Vajehnamə pəhləvi 3. Bax: S.İldırım. Babək Xürrəmdin. Bakı, Nurlan, 2005, 34s.
12.Хусейн Касим аль-Азиз. Бабекиты – восстание Азербайджанского народа против Аббасидского Халифата 201-202 х. (816-837 н. э.). Москва: Издательство Московского университета, 1966, 42с.
13.İbn əl-Əsir. Əl-Kamil fi-t-Tarix. Bakı: Elm 1959, 215s.
14.İldırım S. Babək Xürrəmdin. Bakı: Nurlan, 2005, 34 s.
15.Жузе П. К. Папак и папакизм. К истории коммунистического движения в Азербайджане в IX в. по Р. Х. // Известия Бакинского государственного университета. Баку, 1921. Вып. 2, № 1, с. 203-216.
16.Mélikoff Irène. Abu Muslim, Le « Porte-Hache » du Khorassan dans la tradition épique turco-iranienne Paris: Librairie D'amerigue et D'obient, 1962, 160p.
17.Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: İrşad, 1994, 344s.
18.Muir W. The Caliphate: its Rise, Decline, and Fall. Chapter LXVII, India. New Delhi: Cosmo Publications, 2004, 672p.
19.Мюллер А. История ислама с основания до новейших времен. (в 4 т.). Т. 1. пер. с нем под ред. Медникова Н. А., изд. Пантелеева Л. Ф. - СПб. 1895. - VIII, 376с.
20.Necef E.N. Safevilerin şiiliği sorunu ve türk düşüncesinde kızılbaşlık // Şah İsmayıl Xətai, VIII Elmi-praktik konfransın materialları, Bakı 2008, s.67-78.
21.Пигулевская Н.В. Маздакитское движение // Известия Академии наук СССР, серия истории и философии, №3, Москва, 1944, IV, с. 171-181.
22.Rəisniya R. Azərbaycan der seyre tarihi. (fars dilində) Tebriz, 1989.cild 2, 856 s.
23.Seyidov M.Ə. Qam- Şaman, onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik 1994. 232s.
24.Belemi A.M. Tarixe-Bələmi. Təkməle və tərcümeyi tarixi Təbəri. Tehran 1967, 652s.
25.Томара. М. Бабек. Журн.-газ. об-ние, Москва, 1936. 198с.
26.Wellhausen J. Das Arabische Reich und sein Sturz, Berlin: G. Reimer, 1902, 352p.
27.Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993, 157 s.
28.Vəlixanlı N.M. Bir daha xürrəmilər, xürrəmdinilər, babəkilər və onların ideya sələfləri və xələfləri haqqında // AEA-nın "Xəbərlər"i, tarix, fəlsəfə və hüquq seriyası, № 1-4, Bakı 1997, s. 87-97.
29.Wright E. M. Babak of Badhd and al-Afshin during the years 816-841 // A. D. The Muslim world, V. 38, №1-2, 1948.

**ХАЙАТ ШАМЫЙЕВА**
***Научный сотрудник Института Истории им. А.Бакыханова НАНА***

## РЕЛИГИОЗНАЯ ИДЕОЛОГИЯ И РИТУАЛЫ ХУРРАМИДОВ И ИХ ОТНОШЕНИЕ К ЖЕНЩИНЕ

В статье исследовались религиозная идеология Хуррамидского движения и ритуалы и их отношения к женщине. Был сделан вывод, что Хуррамидская религиозная идеология была связано с древними турецкими ритуалами. В тоже время было выявлено отношение к хуррамидской женщине и ее роль в этом движении.

**HAYAT SHAMIYEVA**
***Scientific worker Institute of History, Azerbaijan National Academy of Sciences***

## RELIGIOUS IDEAS AND CEREMONY OF KHURRAMIDS AND REGARDS FOR WOMAN

Religious ideas and ceremony of Khurramids and the problem of regards for woman have been investigated in the article. It is shown that religious ceremony of Khurramids is related with ancient Turkic religious ceremony. Simulatainously, it is determined atlitude for Khurrami woman and its role in the movement of Khurramids.

***Rəyçilər: t.e.n.T.Nəcəfli, t.e.d. Q.Ə.Əliyev.***
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycanın orta əsrlər tarixi» şöbəsinin 06 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***